UOT 94 "19/..."

# CAR-BALAKƏN CAMAATLIĞI VƏ GƏNCƏ XANLIĞININ ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASININ SƏNƏDLƏRİNDƏ

**C. Ş.QULİYEV**
***LDU-nun aspirantı***
***Quliyevc_@yahoo.com***

*Məqalə XIX əsrin əvvəllərində çar Rusiyasının Cənubi Qafqazı, xüsusilə də Şimali Azərbaycan xanlığı-Gəncənin və Car-Balakənin işğal edilməsinə həsr olunmuşdur. Aparılan araşdırmalar nəticəsində müəllif belə qənaətə gəlir ki, çar Rusiyası Şimali Azərbaycan ərazilərinə yiyələnmək üçün eyni zamanda xristian amilindən məharətlə istifadə edə bilmişdir.*

*Bütün bunlar məqalədə ilkin mənbə xarakteri daşıyan Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri əsasında obyektiv şəkildə işıqlandırılmışdır.*

**Açar sözlər:** Cənubi Qafqaz, Arxeoqrafiya, Rusiya, Xanlıq, Georgiyevsk

XVIII əsrin II yarısında inkişaf etmiş Qərb dövlətlərinin Cənubi Qafqaz bölgəsinə maraqları daha da artmışdı. Məhz bu dövrdə regionda mənafeləri toqquşan Rusiya və Osmanlı imperiyaları arasındakı münasibətlər də kəskinləşmişdi. Buna görə də, Azərbaycanın şimal hissəsində bir-biri ilə daimi çəkişmə və ara müharibələrində olan, bəzi hallarda dostluq münasibətləri saxlayan Qarabağ, Şirvan, Şəki, Quba, Lənkəran, Dərbənd, Bakı, Gəncə, İrəvan və Naxçıvan xanlıqları mürəkkəb tarixi şəraitdə öz müstəqilliklərini qoruyub saxlamaq uğrunda çətin mübarizə aparırdılar.

Rusiya imperiyası Cənubi Qafqazı işğal etmək, xüsusilə də Azərbaycan xanlıqlarını ələ keçirmək və Osmanlı dövlətinin burada nüfuzunun güclənməsinə yol verməmək üçün xristian dini amilindən, ilk növbədə gürcü çarlarından istifadə etmək siyasəti yeridirdi. Elə buna görə də, gürcü çarı 1783-cü il iyulun 24-də Georgiyevsk şəhərində Rusiyanın himayəsinə keçmək haqqında saziş imzaladı [18, 11]. Bundan sonra Rusiyanın hakim dairələri tərəfindən Azərbaycanın bütün xanlıqlarına "xəbərdarlıq" məktubu, həmçinin formal olaraq "hədiyyələr" də göndərilərək, Azərbaycan xanlarına təklif edildi ki, II İraklini belə bir addım atdığına görə tənbeh etməsinlər və onunla dostluq əlaqəsi saxlasınlar [21, 85]. Göründüyü kimi, 1783-cü il Georgiyevsk traktatına əsasən Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi müəyyən dərə-

cədə Cənubi Qafqazın və Cənubi Azərbaycan xanlıqlarının xarici siyasətinə təsir göstərdi. Azərbaycan ərazisində mövcud olan dövlət qurumlarının-xanlıqların başçılarının əksəriyyəti Rusiyanın müstəmləkəçilik siyasətini ilk əvvəl dərk etmədən çarizmin vədlərinə inanır və sadəlövhlüklə Rusiyaya ümid bəsləyirdilər.

Rusiya özünün Cənubi Qafqazda işğalçılıq siyasətini həyata keçirmək məqsədilə Azərbaycan xanlarını müxtəlif yollarla öz tərəfinə çəkməyə çalışırdı. İmperiya siyasətbazları yuxarıda qeyd edildiyi kimi bir tərəfdən Azərbaycan xanlarına "xəbərdarlıq" edir, hədə-qorxu gəlir, İrəvan, Xoy və Təbriz xanlarının saraylarına elçilər və hədiyyələr göndərir, digər tərəfdən isə Georgiyevsk sazişindən istifadə edərək hərbi Gürcüstan yolu vasitəsilə Cənubi Qafqazda hərbi hazırlıq işlərini daha da gücləndirirdilər [23, 259].

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərindən məlum olur ki, I Aleksandr hakimiyyətə gəldikdən sonra hələ I Pyotrun zamanından başlamış Cənubi Qafqazı ələ keçirmək siyasətini bərpa etdi. 1801-ci il sentyabrın 12-də Georgiyevskdə bağlanan yeni müqaviləyə əsasən Qazax, Şəmşədil və Borçalı sultanlıqları Şərqi Gürcüstanla birlikdə Rusiyanın tərkibinə daxil edildi. I Aleksandr 24 aprel 1802-ci ildə Gürcüstanda yerləşən rus qoşunlarının baş komandanı K.F.Knorrinqə yeni təlimat göndərdi. Təlimatda Knorrinqə tapşırıq verilir ki, o, Gürcüstanda olan rus qoşunlarının sıralarını möhkəmləndirsin və hazır vəziyyətdə saxlasın. K.F.Knorrinq eyni zamanda strateji əhəmiyyətə malik olan Gəncə xanlığını işğal etməli idi [8, 841]. Əslində isə qeyd etmək yerinə düşərdi ki, çar Rusiyasının belə sürətli plan üzrə hərəkəti bəhs olunan dövrdə Qacarlar İranının Cənubi Qafqaz bölgəsində fəallaşması, onun İngiltərə və Fransa tərəfindən dəstəklənməsi ilə izah olunmalıdır.

1801-ci ildə Qazax, Şəmşəddil və Borçalı sultanlıqları Şərqi Gürcüstanla birlikdə Rusiya imperiyasına qatıldıqdan sonra Azərbaycan xanlıqları Rusiya, İran və Türkiyə arasında kəskin hərbi-siyasi mübarizə meydanına çevrildi. Bu mübarizə Rusiyanın Qafqazdakı xüsusi hərbi səlahiyyətli komandanları tərəfindən iki istiqamətdə aparılırdı: birincisi, müqavimət göstərən xanlıqların hərbi müstəmləkəçi metodlarla ləğv edilməsi, ikincisi isə, dövlətlərarası müqavilə bağlamaq yolu ilə xanlıqların daxili muxtariyyət hüquqlarını saxlamaqla Rusiyanın vassalına çevrilməsi [25, 30; 16, 65]. Məlumatlardan da göründüyü kimi, Rusiya imperiyası çoxsaylı xanlıqlara və sultanlıqlara parçalanmış Azərbaycanı işğal edərək, nəhayət, özünün regionla və bütövlükdə Şərq ölkələri ilə bağlı işğalçılıq planlarını reallaşdırmağı qarşısına məqsəd qoymuşdu.

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərindən məlum olur ki, Azərbaycan torpaqlarının, o cümlədən İrəvan xanlığına məxsus olan Şorəyəl və Pəmbək sultanlıqlarının Rusiya tərəfindən işğalı İrəvan və Gəncə xanlarının kəskin narazılığına səbəb olmuşdur [2, 598-599].

Azərbaycan xanlarının əksəriyyəti, o cümlədən Rusiyanın hərbi-siyasi təzyiqinə daha çox məruz qalan irəvanli Məhəmməd xan və naxçıvanlı Kəlbəli xan öz müstəqilliklərini qoruyub saxlamaq əzmində idilər. Rusiyanın Qafqaz-

da apardığı müharibələr və zəbt etdiyi torpaqlarda yeritdiyi siyasətə dair bir sıra əsərlər yazmış rus hərbi tarixçisi N.F.Dubrovin yazır ki, İrəvan xanının müraciəti ilə 600 pəmbəkli öz kəndlərini tərk edərək İrəvana pənah gətirdi [19, 402]. İrəvan xanı, eyni zamanda, öz nümayəndəsini general İ.P.Lazaryevin yanına göndərərək Pəmbək vilayətinin şahın fərmanına əsasən ona məxsus olduğunu bildirdi. İrəvan xanı Naxçıvan xanı ilə birlikdə hərbi qüvvələrini səfərbərliyə alaraq rus qoşunlarını Pəmbəkə buraxmamaq qərarına gəldilər. Hərbi əməliyyatda üstünlüyü əldə saxlamaq üçün erməni əsilli çar generalı İ.P.Lazaryevin başçılıq etdiyi qoşun hissələri 30 iyunda Pəmbəkə soxuldu [4, 598]. Maraqlıdır ki, bu zaman gürcü şahzadəsi Davidin də Rusiyaya münasibəti dəyişdi. O, Gürcüstanın rus işğalından sonra düşəcəyi vəziyyəti nəzərə alaraq İrəvan xanına Rusiya dövlətinə tabe olmamağı tövsiyə etdi. Gürcü şahzadələri David, Vaxtanq, Yulon və Aleksandr Gürcüstanı rus qoşunlarından təmizləmək üçün İrəvan xanından kömək istədilər [19, 404].

Tiflisə I Aleksandrın təlimatını gətirən qasid yolda olarkən irəvanlı Məhəmməd xan da öz növbəsində sərhəddə yerləşən rus qoşunlarının üzərinə hərəkət edirdi. Bundan xəbər tutan K.F.Knorrinq 17 may 1802-ci ildə yazılı sürətdə Məhəmməd xandan belə hərəkət etməsinin səbəbini izah etməyi tələb etdi. Məhəmməd xan K.F.Knorrinqi sakit etmək üçün qeyri-səmimi olsa da bildirdi ki, o, müharibə aparmaq fikrində deyil, hətta ruslarla əlaqə yaratmaq arzusundadır. Naxçıvanlı Kəlbəli xan da eyni məzmunda məktubu rus ordusunun qərargahına göndərdi [3, 109-111]. Çar generalı əvvəlcə Pəmbək ağsaqqallarına müraciət edərək İrəvan xanlığına pənah aparan Pəmbək əhalisinin geri qaytarılmasına yardım etmələrini xahiş etdi [5, 598]. Bunun nəticəsiz qaldığını görən İ.P.Lazaryev İrəvan xanına məktub yazaraq pəmbəklilərin geri qaytarılmasını tələb etdi və əks təqdirdə xanın Rusiya imperatorunun qəzəbinə gələcəyini bildirdi [6, 598-599].

“Akt”larda çap edilmiş sənədlər göstərir ki, Rusiya İrəvan xanlığına strateji baxımdan mühüm bir ərazi kimi yanaşmaqla bərabər bu Azərbaycan torpağını Gürcüstanda sabitliyin bərpa olunması, Cənubi Qafqazda İran və Osmanlı dövlətinin siyasi təsir dairəsinin zəiflədilməsindən ötrü strateji bir istinadgah hesab edirdi. Məhz buna görədir ki, çar I Aleksandrın verdiyi fərmanda Rusiyaya tabe ediləcək ərazilər sırasında İrəvan xanlığının adı birinci çəkilirdi [1, 436].

XIX əsrin əvvəlində Cənubi Qafqazın, o cümlədən Azərbaycan xanlıqlarının çar Rusiyası tərəfindən işğal olunmasında erməni-Qriqorian kilsəsi və erməni iş adamları fəal iştirak etmişdilər. Belə ki, bu zaman xüsusi olaraq İrəvandan Tiflisə gəlmiş Üçkilsə monastrının arxiyepiskopu Qriqori buradakı rus ordusunun komandanlığına, o cümlədən mənşəcə erməni olan İ.P.Lazaryevə kəşfiyyat xarakterli məlumatlar verir və onları inandırmağa çalışırdı ki, İrəvan və Naxçıvan xanlarına inanmasınlar, çünki “...İrəvan xanı ruslara yalnız zahirən meyl göstərir, daxilən onlara nifrət bəsləyir və ...İrəvan xanı naxçıvanlı Kəlbəli xana arxalanaraq Pəmbək mahalını Rusiyanın təbəəliyindən çıxarmaq istəyir” [7, 617-618]. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarından

məlum olur ki, öz soydaşı olan erməni keşişinin məlumatını "əsas tutan" İ.P.Lazaryev Pəmbək mahalına yeni-yeni qoşun hissələri göndərmiş və demək olar ki, bütün 14 kəndin əhalsini geri qaytarmışdı. Bu hadisədən sonra Pəmbək bəylərinin bir hissəsi Rusiyaya tabe olmayıb İrəvana qaçmışdı [7, 617-618].

İşğal ərəfəsində Rusiyanın Cənubi Qafqazla bağlı siyasi rəqiblərinin zəifləməsi onun burada işğalçılıq planlarının gerçəkləşməsinə əlverişli şərait yaratdı. Belə ki, Rusiya 1792-ci ildə bağladığı Yassı müqaviləsi ilə onun bu regionda güclənməsinə mane olan Osmanlı imperiyasını Cənubi Qafqazda, o cümlədən Azərbaycanda fəal siyasət yürütmək imkanından məhrum etmişdi. Digər tərəfdən, həmin dövrdə Qacarlar dövlətində yaranmış qeyri-sabit vəziyyət çar Rusiyasının regionda irimiqyaslı hərbi əməliyyatlarına yol açmışdı.

Yaranmış vəziyyətdən istifadə edən Rusiya imperiyası vaxt itirmədən Osmanlı imperiyası və Qacarlar İranının sərhədlərində yerləşən İrəvan xanlığını ələ keçirməyə çalışırdı. Çar Rusiyası Gürcüstanın işğalı dövründən Azərbaycan torpaqlarının ələ keçirilməsi üçün geniş hazırlıq işləri görmüşdü.

Məlumdur ki, Cənubi Qafqazda rus ordusunun baş komandanı K.F.Knorrinq P.D.Sisianovla əvəz olunduqdan sonra rus dövlətinin Cənubi Qafqaz bölgəsində siyasətinin istiqaməti də dəyişdi. Rusiyanın hakim dairələri dövlətin cənub sərhədlərini Kür və Araz çaylarına, qərb sərhədini isə Qara dənizə qədər uzatmaq qərarına gəldi. Bu işdə lazım gələrsə, İran və Türkiyə ilə müharibə etmək əzmində olduğunu da bildirdi. Yeri gəlmişkən qeyd edək ki, P.D.Sisianov I Aleksandra yazdığı 1803-cü il 12 mart tarixli məlumatında İrəvan xanlığını ələ keçirmək üçün əlavə olaraq 3 alay və 100 min rubl lazım olduğunu bildirir və bu qüvvənin köməyi ilə İrəvanı, Naxçıvanı, Şuşanı almağı və hətta Kür-Araz boyu ərazilərin işğalını başa çatdırmağı vəd edirdi [15, 610]. Məlumatlardan da göründüyü kimi, çar hökuməti əsas diqqəti İrəvana yönəltsə də, bütövlükdə Şimali Azərbaycan xanlıqlarını işğal etməyi qarşısına məqsəd qoymuşdu.

P.D.Sisianov Qafqazdakı rus qoşunlarının ali baş komandanı təyin edildikdən sonra Cənubi Qafqaz xalqlarının həyatında dözülməz günlər başlandı. 1803-cü ilin martında Car-Balakən torpağı xüsusi amansızlıqla işğal olundu. Sisianov Car-Balakən torpağının işğalından bir gün sonra -1803-cü il 31 mart tarixli "Bütün Car camaatına əmri" ünvanlanır. Qafqaz Arxeoqrafiya Komissiyası Aktlarının ikinci cildində əmrlə bağlı deyilir: "Dinsiz alçaqlar! Mən sizi çox dilə tutdum, siz isə dağıstanlıları köməyə çağırdınız, sonra da ürəklənib elə bir şey yazırsınız ki, ləyaqətimə toxunur. Siz doğru deyirsiniz, mən gürcüyəm, amma nə ağızla bunu yazmağa cəsarət edirsiniz? Mən Rusiyada doğulmuş, orada böyümüşəm, ruhum da rus ruhudur. Gözləyin, qoy gəlib ora çıxım, onda evlərinizi deyil, sizin özünüzü oda yaxacaq, uşaq və qadınlarınızın içlərini çəkib çıxaracağam. Siz taxıl yığımına kimi sakit oturmağı düşünürsünüz, ancaq Tanrıya and içirəm ki, tələb olunanı (3520 kq ipək-**red.**) verməyincə siz Car çörəyi yeməyəcəksiniz. Budur siz xainlərə mənim axırıncı sözüm" [9, 532]. Məlumatlardan da göründüyü kimi, Car

camaatına ünvanlanmış bu müraciət yalnız çar baş komandanının şəxsiyyətini deyil, həm də çar Rusiyasının irticaçı siyasətinin açıqlanması üçün mühüm əhəmiyyətə malikdir.

Car-Balakən əraziləri rus qoşunları tərəfindən işğal edildikdən sonra növbəti hədəf Gəncə idi. Xatırlatmaq yerinə düşərdi ki, Sisianovun, geniş mənada düşündükdə isə çar Rusiyasının hərbi strateji planında Gəncənin işğalı mühüm yer tuturdu. O, əvvəlcə Gəncəni dinc yolla ələ keçirməyə çalışırdı. Bunun üçün Cavad xana təsir göstərmək, onu təslim olmağa məcbur etmək istəyirdi. İlk günlər Sisianov sanki xanın əsəblərini yoxlayır, azğın istəyini pərdələməyə çalışırdı. Bütün deyilənləri "Akt"larda nəşr olunmuş Sisianovun Cavad xana yazdığı məktublar bir daha təsdiqləyir. Orada yazılır: "Hörmətli məmurunuz Gürgün bəylə göndərdiyiniz məktubu aldım. Orada Sizin dinc, müttəfiq və dostcasına qonşuluq münasibətləri saxlamaq meylinizi gördüm. Bu sözlərin sidq ürəklə yazıldığını qəbul edərək Sizin şəxsi rifahınız üçün qəlbən sevinir və yenilməz qalacaq bir rifahınız münasibətilə Sizi təbrik edirəm. Zira Sizi və sizin xalqı...lütfkar rus imperatoru öz himayəsinə götürür...Gürcüstanla, eləcə də sərhəd qonşuları ilə bağlı hər hansı bir məsələ Sizin rəyinizlə, yalnız Sizin icazəniz...alınandan sonra qəti və qanuni qaydada yoluna qoyulacaqdır. Çünki əlahəzrət hökmdarım məndən bunu tələb edir. Lakin Sizin şərafətli etimadınzın...ən gözəl zəmanəti o olardı ki, xahişimizi nəzərə alaraq yüksək mənsəbli oğlunuz Uğurlu ağanı əmanət kimi Tiflisə göndərəydiniz..." [10, 587-588]. Göründüyü kimi, çox diplomatik şəkildə yazılmış məktub qılınc kimi iti dişlərini gizlətməyə çalışan bir yırtıcı davranışından xəbər verirdi. Gəncə tutulduqdan sonra Sisianov bu şəhərin strateji əhəmiyyəti haqqında yazırdı: "Gəncə qalası yerləşməsinə görə bütün Azərbaycanı qorxu altında saxlamaq imkanı verdiyindən onun ələ keçirilməsini Rusiya üçün çox əhəmiyyətlidir" [17, 580]. Birinci məktubundan fərqli olaraq Sisianov ikinci məktubunda eyhamlı sözləri atıb, sözsüz və qeyd-şərtsiz təslim olmağı tələb edirdi. Sisianovun Cavad xana yazdığı ikinci məktubunda deyilirdi: "Gəncə torpağına ayaq basıb bu gəlişimin səbəbini sizə açıq bildirirəm. Birinci və başlıcası: Gəncə və onun ətrafı çariça Tamaranın hakimiyyəti dövründə Gürcüstana mənsub idi, sonra Gürcüstan çarlarının zəifliyi üzündən ondan ayrılıb. Bütün Rusiya imperiyası özünün hər şeyə qabil himayəsi altına aldığından, onun parçalanmasına göz yuma bilməz...İkincisi, Gürcüstana gələrkən yazdığım məktubuma (həmin məktubda oğlunuzu əmanət kimi verməyi təklif etmişdim) yolladığınız cavabda Siz zati-aliniz bildirirsiniz ki, İran padşahından ehtiyat edirsiniz...Üçüncüsü, adamlarınızın qarət etdikləri Tiflis tacirləri Sizin uca həşəmətiniz tərəfindən razı salınmamışdır...Həmin üç səbəbə görə də mən öz ordumla gəlmişəm ki, şəhərinizi Avropa adəti üzrə tutum...Sizdən iki söz tələb edirəm. Birini seçin: "hə", ya "yox"..." [11, 588]. Bütün hədə-qorxulara baxmayaraq Gəncə xanı müqavimət göstərməyə hazır olduğunu, Gəncənin asanlıqla təslim olmayacağını bildirmişdi. Cavad xanın Sisianova cavabında deyilir: "Məktubunu aldım. Yazırsan ki, şahzadə Tamara

zamanında Gəncə Gürcüstandan asılı olmuşdur. Bu nağıla kimsə inanmaz. Amma əcdadlarımız Abbasqulu xan və başqaları Gürcüstanı idarə edirdilər. İnanmırsansa, yerli qocalardan soruş. Hələ indiyədək Gürcüstanda olan məscid və dükanları qalır. İraklinin və atamızın dövründə Gəncə ilə Gürcüstanın sərhədləri dəqiqləşdirilib. Bununla belə, mən desəm ki, babalarım Gürcüstanda vali olublar, bir kimsə bu sözə hörmətlə yanaşmaz, bir kimsə də Gürcüstanı mənə qaytarmaz...Mənimlə müharibə fikrinə düşmüsənsə, mən hazır. Əgər öz toplarınla öyünürsənsə, mənimkilər onlardan geri qalmır, sizdə top lüləsinin uzunluğu bir arşındırsa, bizdə 3-4 arşındır, uğur isə Allahın əlindədir. Mənə mühribəyə hazır olmağı təklif edirsən? Sən Şəmsəddilə girən gündən müharibəyə hazıram. Hədə-qorxu gəlirsən ki, təklifini qəbul etməsəm, başıma bəla gələcək. Əslində bədbəxtlik səni Peterburqdan qova-qova bura çəkib gətirib. Bunu zaman, bir də müharibənin özü göstərəcək" [12, 589-590]. Yazışmalardan da görünür ki, Gəncə xanı Cavad xan çar Rusiyasının hərbi planları qarşısında zəif görünsə də, hər bir qarış torpaq üçün müqavimət göstərməyə, düşmənə layiqli cavab verməyə hazır idi. Yeri gəlimişkən qeyd etmək lazımdır ki, "Qarabağnamə" müəllifi Mirzə Adıgözəl bəy rus qoşunlarının ali baş komandanının belə hədə-qoxularına haqq qazandıraraq yazır: "Cavad xan mehribanlıq yolu ilə edilən bu nəsihətlərə əhəmiyyət vermədi və onun sözlərinə qulaq asmadı. Knyaz Sisianov dəryatək coşan qoşunlarla Gəncə tərəfinə hərəkət bayrağı qaldırdı...Zəfər nişanəli orduları Gəncə torpağına girib, ətrafı tutdu..." [24, 76].

1803-cü ilin sonlarında Sisianov Gəncə xanlığı üzərinə hücuma keçdi. Çoxsaylı rus qoşunlarının qarşısında uzun sürən müdafiə döyüşlərindən sonra Gəncə qalası işğal olundu. Bir aydan çox qala mühasirədə saxlandı. Şəhərin işğalının sürətləndirilməsi üçün Sisianov oradakı ermənilərlə əlaqə saxladı, onları rus qoşunlarına kömək etməyə çağırdı. Ermənilər həmişə olduğu kimi, bu dəfə də rus təcavüzünün xidmətində layiqincə dayandılar...Gəncə qalası 1804-cü ilin yanvarın 3-də dan yeri ağaran zaman hücumla alındı [20, 234; 27, 291; 13, 592; 26, 32]. Bir məsələni də qeyd etmək lazımdır ki, çar hökuməti Gəncə qırğınını çox böyük təmtəraqla bayram etmişdi. Döyüş bitən günü, 1804-cü ilin yanvarın 3-də İmperatorluq zərbxanasında Gəncənin alınmasında iştirakına görə döş medalı təsis edildi (Qeyd: **«Нагрудная медаль за участие во взятии Гянджи 3 января 1804 г.»** adlanan bu medalın bir nüsxəsi Bakıda, Azərbaycan tarixi muzeyində saxlanılır). Gəncə qalası, xan sarayı qala divarları ilə birlikdə uçurulub yox edildi. Gəncə xanlığı ləğv edilib dairəyə çevrildi. Minillik tarixi olan Gəncənin adı da tarixdən silindi, ona I Aleksandrın arvadı Yelizavetanın adı verildi. Gəncə sözünü dilinə gətirən hər bir kəs bir qızıl cərimə ödəməli idi [17, 586]. "Akt"larda nəşr edilmiş məlumatlardan aydın olur ki, Gəncə qırğını I Aleksandrın xoşuna gəlmişdi. Sisianovun adına 5 fevral 1804-cü il reskriptində məmnunluq belə ifadə edilirdi: "...Asiya qüruru qarşısında güzəştə getmək pis olardı və belə bir örnək o ölkənin başqa hakimlərini də dikbaşlığa sürükləyərək,...sizə tapşırılan planın

yerinə yetirilməsində sonralar çətinlik doğura bilərdi" [14, 593]. Göründüyü kimi, çar hökuməti Car-Balakəndə olduğu kimi Gəncə yürüşündə də öz amansız metodunu seçmiş, dəhşətli qırğınlardan belə çəkinməmişdir.

## ƏDƏBİYYAT


1. AKAK, I c., Tiflis, 1866, sənəd 548
2. AKAK, I c, sənəd 801-802
3. AKAK, I c., sənəd 28
4. AKAK, I c., sənəd 799
5. AKAK, I c., sənəd 800
6. AKAK, I c., sənəd 801
7. AKAK, I c., sənəd 838
8. AKAK, I c., sənəd 841
9. AKAK, II c.,Tiflis, 1868, sənəd 532
10. AKAK, II c., sənəd 1169
11. AKAK, II c., sənəd 1172
12. AKAK, II c., sənəd 1173
13. AKAK, II c., sənəd 1182
14. AKAK, II c., sənəd 1186
15. AKAK, II c., sənəd 1216
16. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər. Bakı: Adiloğlu, 2005, 232 s.
17. Azərbaycan tarixi. S.Əliyarlının red. ilə Bakı: Azərbaycan, 1996, 872 s.
18. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 до 1802 г. Т 2. СПб.: 1869, 286 с.
19. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе, Т. IV. СПб., 1886, 391 с.
20. Дубровин Н.Ф. Закавказье от 1803-1806 года. СПб.: 1866.
21. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 144 s.
22. Gürcüstan Respublikası MDTA, F.2, sənəd 39, v.11
23. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2010, 620 s.
24. Qarabağnamələr. Birinci kitab. Bakı: Şərq-Qərb, 2006, 216 s.
25. Губайдулин А. Феодальные классы и крестянство в Азербайджане в Х1Х в. Баку,1928,310 s.
26. Pakrəvan Ə. Abbas Mirzə və Azərbaycan. Bakı: Qanun, 2010, 336 s.
27. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi ədəbiyyat, 2008, 398 s.


## ЗАВОЕВАНИЕ ДЖАРО-БЕЛАКАНСКОГО ДЖАМААТСВА И ГЯНДЖИНСКОГО ХАНСТВА СО СТОРОНЫ ЦАРСКОЙ РОССИИ В ДОКУМЕНТАХ КАВКАЗСКОЙ АРХЕОГРАФИЧЕСКОЙ КОМИССИИ.


**Д.М.ГУЛИЕВ**


### РЕЗЮМЕ


Статья посвящена завоеванию царской Россией Южного Кавказа, в особенности ханств Северного Азербайджана Гянджи и Джаро-Белаканского джамаатства в начале Х1Х века. В ходе итогов исследования автор приходит к выводу, что царская Россия,

чтобы присвоить территории Северного Азербайджана, умело использовали христианский фактор.

Все это было объективно освещено в статье как первоисточники на основе документов Кавказской археографической комиссии.

**Ключевые слова:** Южный Кавказ, археография, россия, ханство, георгевск

## OCCUPATION OF GANJA KHANATE AND JAR-BALAKAN JAMAATLIGI BY TSARIST RUSSIA IN THE DOCUMENTS OF EARLY TEXTS COMMISSION OF CAUCASUS

**J.M.GULIYEV**

### SUMMARY

The article is devoted to the occupation of South Caucasus, specially the khanate of North Azerbaijan, Ganja and Jar-Balakan jamaatligi by tsarist Russia at the beginning of the XIX century. The author comes to such a conclusion that tsar Russia had skillfully used Christian factor in the occupation of North Azerbaijani lands.

The author refers to the documents of Early Texts Commission of Caucasus as primary sources in the research.

**Key words:** Southern Caucasus, Archaeography, Russia, Khanate, Georgievsk